Vurur sinəmdə ürək.
Dönüb bir gülüstana
Bolqarıstan torpağı
Könlümdə açır çiçək.

1970

BİR PALIDAM

YARPAQ

Çiynimə bir əl toxundu...
Yox, əl deyil, yaxşı bax,
Payızın son meyvəsi –
Qıpqırmızı bir yarpaq!

Mən yarpağa nəzər saldım:
Şaxta vurmuş, gün döymüş,
Çöhrəsi damar-damar.
Yerdən, göydən soruşdum,
Dedim səhər yelinə:
– Burada nə hikmət var?
Deyin, neçin bənzəyir
Yarpaq insan əlinə?

PƏNCƏRƏDƏN GÖRDÜM SƏNİ

Gözəl bir yay axşamıydı.
Küçəmizdən keçən zaman
Pəncərədən gördüm səni.
Yerişində həmən vüqar,
Kürəyində dalğalanan
Saç deyildi: – Bağçaların
Yaz qoxulu yasəməni!
Pəncərədən gördüm səni.
Pəncərədən gördüm səni...
Andım keçən günləri mən,
Uzaqlara uçdu xəyal.

Niyə hicran acı olur,
Niyə şirin olur vüsal?!
Heç nə batmır bu dünyada,
Heç nə batmır, bil, ey nigar.
Hər buludda bir ildırım,
Hər sükutda bir tufan var?..
De, gördünmü sən də məni?
Pəncərədən gördüm səni.

Pəncərədən gördüm səni...
Mənə elə gəldi bu an,
Bir gün ölüm çəksə qılınc,
Köçüb getsəm bu dünyadan,
Bircə ovuc torpaq olsam,
Səmada bir gümüş ulduz,
Ağacda bir yarpaq olsam,
Məhəbbətin gözləriylə
Batan gündə, doğan ayda,
İnan, səni görəcəyəm!
Durnaların qatarında,

Sakit göldə, axan çayda,
İnan, səni görəcəyəm!
Şimşəklərin işığında,
Göy səmada, boz buludda.
İnan, səni görəcəyəm!
Özgələrin söhbətində,
Ağ çiçəkdə, yaşıl otda,
İnan, səni görəcəyəm!
Biz əbədi olmasaq da.
Ölüm bizdən öc almayır.
Bu dünyada əzəl başdan
Bir məhəbbət qocalmayır!
Eşitdinmi mən deyəni?
Pəncərədən gördüm səni.
Pəncərədən gördüm səni...
Yox, yox! Yetər, sevimli yar,
Bu söhbətlər kimə gərək?

Hələ varıq... Ömrümüzün
Qoy barını dadsın ürək!
Hələ varıq... Biz qalmayaq
Həyatdakı bir ləzzətdən,
İnsanlığın ilk zinəti
Acı, şirin məhəbbətdən.
Gəl, unutma məni bir də;
Baxım sənin yerişinə,
Baxım sənin gülüşünə,
Baxım sənin duruşuna.
Gözlərinin işığından
Sən işıq ver gözlərimə,
İnsan ətri, həyat ətri
Qonsun mənim sözlərimə.
Hər gün gəl keçə küçəmizdən,
Abad olsun söz gülşəni.
Qoy car çəkib deyim mən də:
Pəncərədən gördüm səni!
Pəncərədən gördüm səni!

1967

BİR PALIDAM

Tufan yıxmaz, yel uçurmaz
Bir palıdam! Dayanmışam
Bu dağların qucağında.
Dünya görmüş bir dünyayam,
Sönməyən bir alovam mən.
Ataların ocağında!
Hər budağım min budaqdır!
Kök ataraq zaman-zaman
Yayılmışam sağa-sola.
Mən döyüşlər şahidiyəm!
Ordulara sinə gərib
Sərkərdələr saldım yola.
Od püskürdü, alov tökdü,

Çəkdim bəzən qılıncını
Başım üstdə ildırımlar,
Alammadı girdabına,
Baxdı mənə hərıs-hərıs
Dərin, qorxunc sıldırımlar.
Titrəmədim! Sarsılmadım!
Yem olmadım aslanlara,
Ömür sürdüm cəsarətlə.
Sadiq oldum bu torpağa
Pozulmayan bir ilqarla,
Bir əbədi məhəbbətlə.
Bir yanımdan Araz axır,
Bir yanımdan dəli Kürüm,
Xəzər coşur ürəyimdə.
Dağlarımın, çöllərimin
Ətri vardır, suyu vardır
Mənim halal çörəyimdə.
Meh əsdikcə sərin-sərin
Pıçıldaşıb yarpaqlarım
Nəğmə deyir öz dilində.
Onlar mənim övladımdır!
Hər kəs belə xoşbəxt olsun
Öz yurdunda, öz elində.
Budaqlarım çadır kimi...
İsti gündə, soyuq gündə
İnsanların pənahıdır.
Xan Kəpəzdən doğan günəş
Bu ellərin ümididir,
Bu yerlərin sabahıdır!
Mən tərlanlar oylağıyam!..
Sinəm geniş bir meydandır –
Şan-şöhrətdir bu hal mənə.
Dörd yanımı alsa duman,
Hər budağım, süngü olub
Aman verməz bir düşmənə!
Məndən böyük, məndən kiçik
Palıdlar var!.. Əzəl gündən

Baş əyməyib əsla yada,
Bir-birinə qardaş deyib.
Sədaqətlə, etibarla
Yaşamışlar bu dünyada.
Get, ey bulud! Sus, ey tufan!
Baş qaldırıb yüksəklərə
Qoy günəşə baxsın hamı!
Qoy dünyaya zinət versin,
Bir an belə pozulmasın
Palıdların ehtişamı!
Get, ey bulud! Sus, ey tufan!
Qoy güllə yox, nəğmə qonsun
Mənim yaşıl budağıma!
Xəzan görüb tökülməsin
Yarpaqlarım göz yaşı tək
Mənim ana torpağıma...
Tufan yıxmaz, yel uçurmaz
Bir palıdam! Dayanmışam
Bu dağların qucağında.
Dünya görmüş bir dünyayam,
Sönməyən bir alovam mən
Ataların ocağında!..

1964

* * *

Qabağımda kağız, qələm...
Göy üzündə əzəmətlə
Yaz qaldırıb buludlarda
Öz ildırım bayrağını.
Töküb yenə pəncərəmə
Əvvəlki tək sədaqətlə
Şaftalılar, gavalılar
Çiçək dolu budağını...

Varaqlara baxıram mən,
Mən baxıram sözlərimə,
İnanmıram gördüyümə,
İnanmıram gözlərimə.

Kağızlarda qələm deyil, –
Gəzir sübhün külәkləri;
Şer deyil bu yazdığım,
Tökülübdür masam üstə
İlk baharın çiçəkləri!

1967

* * *

Demə, bir də demə mənə:
– Alnın niyə qırış-qırış,
Saçların da tez ağarmış?..
Bircə dəfə haqq yolunda,
De, səngərə yatdınmı sən?
Durub xeyrin keşiyində,
Şərə güllə atdınmı sən?
Demə, bir də demə mənə:
– Nədir səndə bu iztirab?
Gözündəki bu dalğınlıq
Üzündəki sonsuz əzab?
Sən zamanın daş yükünü
Çəkmisənmi kürəyində?
Bəzən haqlı ola-ola,
Öz sözünü öz əlinlə
Boğmusanmı ürəyində?
Görmürsənmi, car çəkərək
Namus, vicdan deyənləri?
Namusunu, vicdanını
Mənsəb üçün, şöhrət üçün
Çörək edib yeyənləri?
Demə, bir də demə mənə:
– Baxmayırsan əsla sözə,
Nə evinə dəvət edir,
– Nə gəlirsən özün bizə?
– Dadmısanmı dar günündə
"Dost" eləyən xəyanəti?
Birdən-birə yoxa çıxan
Onlardakı dəyanəti?

Əhdi yalan, sözü yalan
İnsanlarla ömründə sən
Heç üz-üzə durmusanmı?
Qızarmayan üzlərinə
Son onların öz əlinlə
Bircə şillə vurmusanmı?
Demə, bir də demə mənə:
– Bəs deyilmi bu dərd, qada?
Başqasına can yandırıb,
Sən özünü salma oda.
Söylə görüm, yadındamı,
Arxa olub bir insanın
Tutmusanmı sən əlindən?
Yaxşı gündə, yaman gündə
Ürək açan şirin bir söz
Çıxıbdırmı heç dilindən?
İnsanların fəlakəti –
Fəlakətim olmuş mənim!
İnsanların səadəti –
Səadətim olmuş mənim!
Sən gündə bir cildə girib
Gəl nəsihət vermə yenə;
Rəndələnmiş bu sözləri
Demə, bir də demə mənə!

* * *

Bir yarpağam... Axşam çağı
Yerə düşdüm budaqdan.
Görüb məni yol üstündə
Qayıdanda bulaqdan:
– Külək salıb, – dedi bir qız,
Sonra aldı əlinə.
Qəlbi yandı intizarla.
Baxdı payız yelinə,
Sinəsinə basıb getdi...
Seyrə dalıb mən bunu;

"Niyə bu qız pərişandır?" –
Düşündüm yol uzunu.
Yar yolunda hicran çəkib
Bəlkə qalıb o, yalnız?!
İndi məni görən kimi
O gəncimi andı qız?!
Yox, yox! O qız bilmədi heç
Sevib onu uzaqdan,
Yaxasına qonmaq üçün
Məni külək salmadı,
Özüm düşdüm budaqdan!

1964

* * *

Bir göyərçin daşa çırpıb
Sındırarsa qanadını,
Məlhəm qoyub yarasına,
Qurtaracaq fəlakətdən
İnsan onun həyatını.
Əgər birdən tufan qopub
Yol üstündə bir söyüdü
Yıxsa yerə öz kökündən.
Dünya görmüş qoca bağban
Bel götürüb həmən gündən
Başqa söyüd əkər orda,
Bir vaxt keçər, salxım söyüd
Dalğalanar havalarda.
Dağdan axan bir bulağın
Tutularsa gözü birdən,
Əlləriylə açıb insan
O bulağın tez gözünü;
İlham alıb göydən, yerdən,
Gümüş suyun xoş səsiylə
Ağaclara, çiçəklərə
Söyləyər o, hər sözünü!
Əgər birdən sönsə günəş,
Dünya dönsə bir zülmətə

İnsan oğlu gecə-gündüz
Qatlaşaraq min zəhmətə,
Ömrün şirin yuxusunu
Boğa-boğa o, gözündə,
Yeni günəş yaradacaq
Bu sevimli yer üzündə!
Əgər insan ağlayarsa,
Əgər torpaq ağlayarsa,
Əgər zaman ağlayarsa;
Od püskürən ildırımlar,
Min illərin sarayında
Yandırarsa ağlımızın
Ağır təməl daşlarını,
Kim siləcək, ey insanlar,
Dünyanın göz yaşlarını?!

1967

MİRZƏ ŞƏFİ VAZEHİ OXUYARKƏN

1. GİRİŞ

Salam, Mirzə Şəfi, salam ey ustad!
Şairlər, çinarlar vətəni, salam!
Qəlbimi söksə də bu gün fəryad,
Mən sizdən alıram yenə də ilham.

Salam, Gəncə çayı! Salam, Hacıkənd!
Ey yaşıl meşələr, ey dağlar, salam!
Könlüm çoxdan olub bu yerlərə bənd,
Ey güllər, çiçəklər, ey bağlar, salam!

Tök öz salxımını, ey söyüd, yerə
Ey çinar, titrətmə budaqlarını!
Təbiət dalanda düşüncələrə
Ürəklər dindirər dodaqlarını!..
Gəlin yad eləyək Vazehi bir də,
Bu qədim Gəncədə – bu doğma yerdə!

Sus, ey uzaqlarda çaxan ildırım,
Xatırla bu axşam şairi sən də!
Göylərin döşündə açdığın şırım
Nə hisslər, fikirlər oyadır məndə!

O, şeirə baxmadı bir nazlı yar tək,
Söz onun əlində qılınca döndü.
Zülmətin bağrını dəldi o şimşək.
Ona xor baxanın iqbalı döndü.

Dinə balta çaldı, atdı Quranı,
Özünə din bildi daim insanı
O müftə qazanıb, müftə yeyənlər,
Mənsəbə, şöhrətə şeir deyənlər
Hər zaman ona bir böhtan atdılar,
Vicdanı, namusu pula satdılar!
Osa döyəclədi öz zamanını,
Gah Gəncə, gah Tiflis oldu məkanı!

Axşamlar dağlardan əsəndə külək
Çinarlar altında o dayandı tək.
Qəlbində ölməyən böyük bir amal,
Onu uzaqlara apardı xəyal.
Saz çaldı, oxudu öz nəğməsini,
Daşlar da eşidir şeirin səsini!..
Oxudu...
İndisə başqadır zaman,
Başqadır, bu dünya, başqadır insan.
Gəl, Vazeh, gəl, şair! Gəl öpüm səni,
Gəl indi seyr eylə, sən bu Gəncəni.

Nə Mirzə Yusif var, nə də axund var,
Gəncə başdan-başa olub laləzar!
Söylə, kim demişdir: başdan-binadan
Sən bədbəxt doğuldun bədbəxt, anadan?
Yalandır bu söhbət, yalandır bu söz;
Dünyanın qəlbinə saldığın o köz

Əsla sönməmişdir!..
Sönə də bilməz,
Günəş olan yerə qaranlıq gəlməz!.
Haqqı, ədaləti tapdayıb keçən,
Dünyaya gəlməmiş dünyadan köçən
Şairlər az deyil...
Sən isə müdam
Xoşbəxt bir sabahdan almısan ilham.
İnsanlıq, ədalət oldu bayrağın,
O uzaq illərdən gəlir sorağın!
Sən də yoxsulluğun gəl at daşını,
Tap öz Hafizəni – can sirdaşını!
Bu dünya çıxdıqca yasdan-qaradan,
İtmir yaradılan, batmır yaradan!..
Gəlin yad eyləyək Vazehi bir də,
Bu qədim Gəncədə – bu doğma yerdə!

2. ŞAİR VƏ AXUND

Kəc baxma, ey axund, kəc baxma mənə,
Nədir gözlərində bu qəzəb, bu kin?
Mən ki, heç uymadım sizlər deyənə
Başqadır mənim də inandığım din.
Demə, Mirzə Şəfi, at şeiri, sazı,
Bağla ümidini axirətə sən.
Bir zaman solanda ömrünün yazı
Düşün, kim tutacaq sənin əlindən?!
Söyləmə, ay axund, nədir bu şərab,
Nədir gözəllərdə gördüyün bu naz?
Ömür dedikləri sonsuz bir əzab,
Hər yanda matəmdir, hər tərəfdə yas.
Tənhalıq, sükunət deşir bağrımı.
Başqa bir aləmə can atıram mən.
Şəriət bilmədi mənim ağrımı,
Əlimdən yapışan şərabdır hərdən.
Alışıb şam kimi sönür ürəyim

Sənin görmədiyin zülmət içində
Bəzən bir xəncərə dönür ürəyim
Təriflər dediyin cənnət içində!..
Danışma, ey axund!.. Kor olun sizi,
Çünki kor etdiniz gözlərimizi!

3. MİRZƏ ŞƏFİ, MİRZƏ YUSİF VƏ TACİR

Mirzə Yusif

Paho, Mirzə Şəfi!.. Xoş gördük səni,
Çoxdandır heç yada salmırsan məni?
Gəlmirsən, getmirsən?..

Tacir

Onda adətdir
İnsanı çaşdıran addır, şöhrətdir.
Şairlik belədir!
Gələndə ilham,
Ona həmdəm olur Nizami, Xəyyam.
Bir də ki, gözəllər!

Mirzə Şəfi

Yox, inanın siz,
Həmişə dilimin əzbərisiniz
Sizsiz darıxardım mən bu dünyada,
Mümkünmü sizləri salmamaq yada?

Mirzə Yusif

Ah, yenə kinayə, yenə şikayət?!

Mirzə Şəfi

Belə başlanıbdır bizim hekayət,
Gərək beləcə də o yetsin sona!

Tacir

Yəni darlıq edir bu Gəncə sana?

Mirzə Şəfi

Gəncə yox, zəmanə! Bu sifət, bu göz,
Hər gün eşitdiyim bu tikanlı söz,
Mənə darlıq edir... Elədir, bəli,
Mənə darlıq edir sizin gülməli
Bu iyrənc, bu saxta hərəkətiniz,
Dünyanın canında bir qurdsunuz siz!..

Mirzə Yusif

Bunu eşitmişik... Söylə görək sən
Nə vaxt bu sözlərdən əl çəkəcəksən?!
Sataşma divanə, sataşma bizə,
Əgər istəyirsən, gəl kölgəmizə
Sənə rütbə verək!

Tacir

Sənə pul verək,
Hara istəyirsən səni göndərək!
Get gəz İstanbulu, get gəz Bağdadı.
Düşsün dildən-dilə Gəncənin adı!

Mirzə Yusif

İstəsən Şiraza, Səmərqəndə get!

Tacir

Pul bizim, can sənin!.. Kef çək, kama yet!

Mirzə Şəfi

Sağ olun, xəcalət verdiniz mənə,
Səxavət çuvalı açılıb yenə!
Belə adamsınız, onda xalqı siz
Neçin nadanlıqda məhv edirsiniz?

Çapxana düzəldin... Məktəblər açın...
Elmin işığını hər yana saçın!
Qoy hamı oxusun!.. Yazıqdır millət,
Onu pəncəsində boğur cəhalət!

Tacir

O sənə qalmayıb!.. Sən unut bunu,
Bilmirsən millətin nə olduğunu!

Mirzə Şəfi

Mən yaxşı bilirəm! Ac qurd kimi siz
Onun var-yoxunu çapıb yediniz.

Mirzə Yusif

Düzələn deyilsən!.. İnan ki, bir gün
Səni edəcəklər Gəncədən sürgün!..

Mirzə Şəfi

Sizsiz də mən bunu bilirəm özüm,
Tükənən deyildir məndəki dözüm!
Ölsəm də, qalacaq mənim sənətim,
Gəzəcək dillərdə sözüm, söhbətim!..

4. İLK MƏHƏBBƏT

Bir ağ gülə baxa-baxa yandı Vazeh,
Züleyxanı andı Vazeh,
Yandı Vazeh!..

İlk məhəbbət... gözəl Gəncə, yaşıl eyvan...
Sinəsində, xəyalında daim tufan,
O, aylarla bu eyvanı seyrə daldı,
Züleyxaya şeir qoşdu, saz da çaldı!
Bir gün axşam o, baxanda bu eyvana, –
Qız sevinclə bir qızılgül atdı ona.

Güldü onun gözlərində bütün varlıq,
Yerə-göyə sığışmadı bəxtiyarlıq!
Çox sürmədi bu səadət, bu eşq, aman,
Döydü zaman
O xan qızı... Bu bir Mirzə...
Eh, məhəbbət baxmır sözə!

Bir ağ gülə baxa-baxa yandı Vazeh
Züleyxanı andı Vazeh;
Yandı Vazeh!..

5. ŞAİRİN VƏTƏNİ

Hafiz Şirazdandır, mən də Gəncədən –
Dedi Mirzə Şəfi bir iftixarla. –
Çinarlar altında böyümüşəm mən
Burda sirdaş olub qışla, baharla...

Gəncə başdan-başa bağçadır, bağdır,
Sübhədək kəsilmir bülbülün səsi!
Bir tərəf arandır, bir tərəf dağdır,
Gözəldir suların hər təranəsi.
Min nemət yetirir bu yerdə torpaq,
Qızılgül, yasəmən tutub aləmi,
Günəşdən nur əmib açanda zanbaq
Unudur ürəyim qüssəni, qəmi.

Bədnuşun ətrindən məst olur insan,
Bənövşə kolluqdan çağırır bizi.
Bəzən üstümüzü alanda duman
Güllərə açırıq ürəyimizi.

Nizami torpağı bir lalәzardır.
Bu yerin öz şeiri, öz sözü vardır!
At sürüb Göygölə çox çıxmışam mən,
Dağlarda çiynimə qonubdur bulud!

Meşələr xəyala dalanda hərdən
Məni öz qoynuna alıbdır sükut.

Başımın üstündə süzəndə qartal
Əyilib bulaqdan su içmişəm mən.
Qəlbimdə, beynimdə dəli bir xəyal
O dağdan, dərədən çox keçmişəm mən!

Enişdə, yoxuşda gördüyün hər iz
Dolanıb zirvəyə aparır səni.
Quş qanadsız uçmaz, insan məsləksiz.
Unutma, ey könül, şair deyəni!

Gecələr dağlarda azsan yolunu,
Alışıb göylərdə yanar ildırım.
Qorxma, bir palıda dola qolunu,
İnan, udmayacaq səni sıldırım.

Bir təmiz ürək var bizim dağlarda,
Düşünür insan tək burda dağlar da!

Gələndə ayrılıq, bir bahar cünü
Apardım Göygölü iki gözümdə.
Əsla unutmadım vətən mülkünü,
Bir pələng qüvvəti duydum özümdə.

Tiflisdə edəndə Kürə tamaşa
Duydum Gəncəçayın qıjıltısını.
Az qaldı başımda xəyalım çaşa,
Andım göy otların xışıltısını.

Elə bil üstümə töküldü bu dəm
Dağların yağışı, dağların qarı,
Vətənsiz gülmədi gözümdə aləm,
Andım xan Kəpəzi, andım Qoşqarı.

Gəncə hər sözümə bir qanad oldu,
Könlüm Gəncə ilə daim şad oldu!

6. BUZ HAQQINDA BALLADA

Bu gün yenə qar yağır...
Yollar, izlər tamam qar.
Əllərində kürək, bel,
Yığın-yığın adamlar
Qar kürüyür, sındırır
Səkilərin buzunu,
Geniş yollar uzunu...

Qar kürüyür adamlar:
Olmasın bir fəlakət,
Gülsün daim insana
Bir xoşbəxtlik, səadət.
Bir daxmanın, bir evin
Qoy çırağı sönməsin,
Buz sındıran bir insan
Özü buza dönməsin!

Mirzə Şəfi kənardan
Seyrə dalmışdır bunu:
Ancaq başqa bir fikir
Düşündürür hey onu.
Gözündə qan ağlayır
Onun yenə bu aləm,
Dönüb iti xəncərə
Ürəyini deşir qəm,
Deyir: – İnsan yorulmur
Təbiətlə davada,
Bəzən külüng, bəzən bel.
Parıldayır havada.
Amma başqa bir dərd var
Unutmayın siz bunu:
Kim qıracaq bilmirəm
Daş baxışlı gözlərin,
Ürəklərin buzunu?!

7. ÇİNARLAR ALTINDA

I

Axşamdır...Şəhərə çöküb qaranlıq,
Gəlir minarədən azanın səsi.
Yollardan əl-ayaq yığışıb artıq,
Susmuşdur quşların xoş tərənəsi.

Qoca çinarlar da xəyala dalmış,
Yeri də, göyü də qaplayıb sükut.
Sanki gözəl şəhər birdən qocalmış.
Gəzir göylərində qara bir bulud.

Təkcə şəhər deyil...Diqqətlə bax sən,
Zamanın qəlbində bir ağrı vardır.
Nədir insanları çeynəyib əzən?
Həyat başdan-başa sanki məzardır.

Nə varsa, elə bil tutulub dərdə,
Çırpınır ürəklər məngənələrdə!

II

Çıxdı Mirzə Şəfi öz hücrəsindən,
Əvvəl çinarlara bir nəzər saldı
– Niyə fikirlisən, söylə görüm sən? –
Sonra şagirdindən o, xəbər aldı.
Şagird dillənmədi...
– De, görüm nə var,
Nədir qəlbindəki bu çırpıntılar?
– Yaman darıxıram! – dedi Fətəli –
Sanki boğur məni dövranın əli.
Vazeh baxdı ona... Susdu bir ara,
Göynədi qəlbində köhnə bir yara.
Ona da bəllidir bu qüssə, bu qəm,
Dərin bir sükuta dolan bu aləm.
Ona da bəllidir bu ağır dövran,
Susarmı düşünən, duyan bir insan?!

III

Məsciddən çıxaraq yeriyib qoşa,
Bir çinar altında dayandı onlar,
Mirzənin zəhməti getmədi boşa,
Qaynayır, içində coşur tufanlar.

Sevir Fətəlini o bir övlad tək
Bütün ümidləri bağlıdır ona.
Köksündə sevinclə döyünür ürək:
Bir tərlan uçurur o, asimana!

Yarpaqsız, budaqsız olsa bir ağac,
Heç yerə, heç kəsə o kölgə salmaz.
Qızıldan başına qoyulsa da tac,
Ürəyi olmayan ürəkdə qalmaz.

Amma ki, neyləmək.. Neyləmək, heyhat,
Başqadır bu dövran, başqadır həyat.

IV

Mirzə Şəfi

Bilirəm dərdini...Bilirəm, oğlum,
Mənim də əzəldən belədir yolum:
Zülmətdə şam kimi əgər yanmasaq,
Bəzən dərya olub çalxalanmasaq,
Dağılmaz bu sükut, dəyişməz zaman,
Atıb qəm yükünü sevinməz insan.

Fətəli

Çox ağır işdir bu...

Mirzə Şəfi

Ağırdır, bəli,
O zəhmət istəyir!.. Amma, Fətəli,

Səndəki bu bilik, səndəki kamal,
Səndəki o məntiq, qanadlı xəyal
Dağları tərpədər...

Fətəli

Ah, mənim əmim...
İnanın, başımdan aşıbdır qəmim!

Mirzə Şəfi

Əmin nə deyir ki?

Fətəli

Əmin deyir mən
Axund olmalıyam.

Mirzə Şəfi

Sən nə dedin, sən?

Fətəli

Mənim çarəm nədir?!

Mirzə Şəfi

Dəhşətə bir bax,
Fətəli, Fətəli axund olacaq?!
Bəs mənim zəhmətim? Bəs mənim arzum?
Bunları başından at getsin, quzum!
Sənsiz də az deyil, dünyada onlar,
Başı əmnaməli o şarlatanlar!

Fətəli

Şarlatan?!

Mirzə Şəfi

Şarlatan, şarlatan, bəli.
Sözlərim gəlsə də sənə gülməli,
Bu bir həqiqətdir.

Fətəli

Doğrudanmı, siz,
Belə bir əqidə sahibisiniz?
İnana bilmirəm!

Mirzə Şəfi

İnan sən buna,
Vazehin bu sayaq doğulduğuna!
Onlardır qurd kimi dağıdan bizi,
Yeyən beynimizi, ürəyimizi.
Onlardır namusu, qeyrəti atan,
Bir qarın çörəyə milləti satan,
Bu məscid, bu azan, bu quran, bu din
İnan, düşmənidir bu yazıq Şərqin!

Fətəli

Sağ olun, ey ustad, sağ olun ki, siz
Mənim gözlərimə bir nur verdiniz.
Daim narahatdım... İndi isə mən
Qurtardım can üzən o şübhələrdən!

Mirzə Şəfi

Çox yazıq millətdir bizim bu millət,
Bildiyi zəhmətdir, gördüyü zillət.
Arabir kəndlərə çıxdığım zaman
Donur damarımda, ürəyimdə qan.
Biz elin qolundan tutmasaq əgər,
Yoxsulluq, cəhalət onu məhv edər!
Hələ sən bilmirsən qoca Şərq nədir,
O ağzı kilidli bir xəzinədir!
Günəşli gündüzə qatıb gecəni,
Gərək sən açasan o xəzinəni.
Gərək qılınc olsun əlində qələm.
Sənինlə fəxr edib sevinsin aləm!

Fətəli

Əziz müəllimim, nə qədər varam
Sizə ömru boyu mən minnətdaram!

Mirzə Şəfi

Bu mənim borcumdur... hələ bu azdır,
Gözlərimdə gülən bir güllü yazdır.
Nə vaxtdır sinəmdə əmr edir ürək:
Mən səni Tiflisə aparam gərək.
Ora başqa aləm, başqa diyardır,
Orda daha kamil insanlar vardır.
Orda Rusiyanı, Avropanı sən
Tanıyıb daha da yetkinləşərsən!

Fətəli

Əmim buraxarmı?

Mirzə Şəfi

Deyərəm ona,
Yetməzmi kor olmaq biz müsəlmana?!
O getdi... Dalınca baxdı, Fətəli,
Yandı ürəyində ümid məşəli.
Ah, onu gözləyir bir şöhrət, bir ad,
Döyüşlər meydanı böyük bir həyat.

1971

I. DEDİM ŞEİR YAZIM ONA

Anadan olmasının 50 illiyi münasibətilə

Dedim şeir yazım ona...
Sonra gördüm mən, doğrusu,
Yamanca zor bir işdir bu!
Atdım həmən bir kənara
İnad şair cürətini,
Çəkdim yalnız bir kağıza,
Sizə tanış, mənə tanış
Onun şair surətini!
Saçlar dümağ, bahar qarı,
Gündə yanmış geniş alın,
Xoş bir sifət!
O sifətdə bir iftixar,
Bəzən də bir yorğunluq var!
Diqqət etsən: zaman-zaman,
Cəbhə yarıb ordu basan,
Sonra isə məhəbbətlə,
Keçmişinə nəzər salan,
Öz işindən, hünərindən,
Şirin-şirin ləzzət alan,
Bir əsgərdə olur əlbət,
Belə alın, belə sifət!
Orda qalın qaşlar altda
Daim yanan iki göz var:
Ümman kimi o gözlərin
Aram-aram axışında.
Və bəzən də qəzəb dolu,
Alov dolu baxışında.
Şüar kimi dildə gəzən,
Dostlara bir arxa olan,
Düşmənləri döyüb əzən,

Qılınc taxmış neçə söz var!
O gözlərin baxışına
Etsən əgər sən tamaşa:
O baxışlar həyat verir,
Duran qəlbə, soyuq daşa.
O baxışlar bir ölkənin,
Bir torpağın baharıdır.
O baxışlar dost millətlər;
Qardaş xalqlar dünyasında
Azad olan,
Xoşbəxt olan
Bir millətin vüqarıdır!
O baxışlar bir hörmətdir
Uzaq-yaxın insanlara,
Orda böyük sevgi sözü,
Ən şirin bir nemət kimi
Düşmüş bu gün dastanlara!
Orda Xəzər şahə qalxmış,
Kür də sakit axıb gedir,
Orda Vaqif şeir yazır,
Bəsti şirin söhbət edir!
Orda Eldar nərə çəkir
Döyüşlərdə cəsarətlə!
O gözlərdə xeyirxahlıq,
Saf məhəbbət, mehribanlıq,
Körpə uşaq təbəssümü,
Bir də dönməz qəhrəmanlıq.
Tükənməyən bir dövlətdir!
O gözlərin parıltısı
Könüllərə bir zinətdir!
O gözlərin mənasına
Yer də dardır, göy də dardır,
O gözlərdə yazılmamış
Hələ neçə əsər vardır!..
Dedim, şeir yazım ona:
Sonra gördüm mən, doğrusu,
Yamanca zor bir işdir bu!